*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZIRLIYININ ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   2 may 2015-ci il   № 33 (1949)   Qiymәti 25 qəpik

## Rəsmi xronika

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Ölkəmizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində və bununla bağlı aparılan danışıqlar prosesində ən maraqlı tərəf olduğunu deyən dövlətimizin başçısı Azərbaycan torpaqlarının 20 faizdən çoxunun işğala məruz qaldığını və bu vəziyyətin uzun illər davam etdiyini, atılan addımların heç bir nəticə vermədiyini vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, danışıqlar masasında irəli sürülən təşəbbüslərə əngəllər yaradan Ermənistan təmas xəttində müxtəlif silahlı təxribatlar törətməklə mövcud status-kvonu saxlamağa çalışır. Dövlətimizin başçısı Avropa İttifaqının münaqişənin həlli ilə bağlı konkret mövqe nümayiş etdirməməsini də təəssüflə qeyd etdi.***

***Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələrinin vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da "Rossiya-24" telekanalına müsahibə verib.***

***Dövlətimizin başçısı Böyük Vətən müharibəsində qələbənin 70 illiyi, Azərbaycanın energetika sahəsinin uğurlu inkişafı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, birinci Avropa Oyunlarına hazırlıq və digər məsələlərlə bağlı suallara cavab verib.***

* * *

***✓Aprelin 29-da Bakı Konqres Mərkəzinin açılışı olub.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva açılışda iştirak edirlər.***

***Maliyyə naziri Samir Şərifov Mərkəzdə görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.***

***Heydər Əliyev Mərkəzinin yaxınlığında yüksək zövqlə inşa olunan bu Mərkəzin tikintisinə 2014-cü ilin fevralında başlanıb. Mərkəzin ümumi sahəsi 6,2 hektar, tikintialtı sahəsi isə 46,6 min kvadratmetrdir. Ətrafda geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb. Bina bütün zəruri infrastrukturla təmin olunub.***

***Bu möhtəşəm bina inşa olunduğu əraziyə də gözəllik verir, Heydər Əliyev Mərkəzinin yerləşdiyi məkanın füsunkarlığını daha da artırır. Orijinal üslubda tikilən Mərkəz ümumilikdə, paytaxtda aparılan abadlıq-quruculuq işlərinin davamlı olduğunu bir daha təsdiqləyir.***

**AZƏRTAC-ın materialları əsasında**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# "Bizim bayrağımız tezliklə Xankəndidə, Şuşada, Laçında və digər işğal edilmiş torpaqlarımızda dalğalanacaqdır"

### Xüsusi Təyinatlı Qüvvələrin yeni yaradılan hərbi hissələrinə döyüş bayraqları təqdim olunub



***Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrində olublar.***

Əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin azadlığı, müstəqilliyi uğrunda həyatlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni ifa edildikdən sonra Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq Fərmanı ilə yeni yaradılan hərbi hissələrə verilmiş döyüş bayraqlarını komandirlərə təqdim edib.

Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-mayor Hikmət Mirzəyev mərasimdə çıxış edərək ölkə rəhbərliyi və Müdafiə Nazirliyi tərəfindən xüsusi təyinatlılara göstərilən etimada görə minnətdarlığını bildirib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov əlamətdar gün münasibətilə Xüsusi Təyinatlı Qüvvələrin nümayəndələri qarşısında çıxış edərək bildirib: "Bu gün biz Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 16-cı ildönümünü qeyd edir və yeni yaradılan hərbi birləşmələrə döyüş bayraqlarını təqdim edirik. Bu, qısa bir müddətdə düşmənə qarşı keçirilən uğurlu, parlaq fəaliyyətlərin nəticəsi olaraq, döyüşlərdə sınanmış xüsusi təyinatlılara ölkə rəhbərliyi tərəfindən verilən ən böyük qiymətdir.

**(Ardı 2-ci səhifədə)**

## Herbert Salber: azərbaycanlı girovların azad edilməsi məsələsi yenidən Ermənistanın qarşısında qaldırılacaq

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salber ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar haqqında müzakirələr aparılıb və mövcud status-kvonun qəbuledilməz olduğu vurğulanıb.

Nazir Elmar Məmmədyarov Ermənistan silahlı qüvvələrinin girov götürdüyü Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi məsələsinə toxunaraq, humanitar xarakter daşıyan bu məsələnin beynəlxalq birlik və Avropa İttifaqı tərəfindən Ermənistan qarşısında qaldırılmasının vacibliyini vurğulayıb. O, girovların səhhəti ilə əlaqədar Azərbaycan tərəfinin narahatlığını bildirib.

Herbert Salber azərbaycanlı girovların azad edilməsi məsələsinin Ermənistan tərəfinin qarşısında yenidən qaldırılacağını deyib.

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində 4000-dən artıq şəxsin itkin düşdüyünü deyən Elmar Məmmədyarov bildirib ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən də dəstəkləndiyi kimi, Ermənistan tərəfi humanitar prinsiplərdən çıxış edərək onların taleyi barədə məlumat verməlidir. O əlavə edib ki, itkin düşmüş şəxslərin kimliyi DNK analizləri vasitəsilə müəyyən edilə və nəticə etibarilə, ailələrinə və yaxınlarına onların taleyi barədə məlumat verilə bilər.

Elmar Məmmədyarov Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları arasında dialoqun münaqişənin həllinə xidmət edə biləcək vacib etimad quruculuğu tədbiri olduğunu vurğulayıb.

Herbert Salber birinci Avropa Oyunlarının keçirilməsi münasibətilə Azərbaycanı təbrik edib, bu oyunların sülhə, sabitliyə, çiçəklənmə və inkişafa xidmət etdiyini bildirib.

Görüşdə qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında müzakirələr aparılıb.

## "The Washington Times": Dağlıq Qarabağ münaqişəsi vaxtında həll edilsəydi, Ukraynadakı bugünkü hadisələr də yaşanmazdı

ABŞ postsovet məkanındakı bütün separatçı münaqişələrə münasibətdə ardıcıllıq nümayiş etdirməlidir.

Bu fikir ABŞ-ın "The Washington Times" qəzetində dərc olunan məqalədə öz əksini tapıb. Məqalənin müəllifi Maayan Kaffe ABŞ-ın Ukraynaya və Azərbaycana münasibəti arasında müqayisə aparır. O, Birləşmiş Ştatların Ukrayna hadisələri ilə bağlı bu ölkəni dəstəklədiyini, lakin Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycana münasibətdə eyni dəstəyi nümayiş etdirmədiyini yazır.

Müəllif məqalədə belə bir sual qoyur: "Niyə ABŞ Cənubi Qafqaz regionundakı müttəfiqi olan Azərbaycana münasibətdə eyni dəstəyi vermir? Bəs Birləşmiş Ştatların xarici siyasətindəki davamlılıq haradadır?"

Məqalədə vurğulanır ki, Ermənistan 20 ildən artıqdır Azərbaycanın ərazi bütövlüyünü pozaraq Dağlıq Qarabağda və ətraf yeddi rayonda işğalçılıq və etnik təmizləmə siyasəti həyata keçirir. Dağlıq Qarabağ və həmin rayonlar tarixi Azərbaycan torpaqlarıdır və beynəlxalq ictimaiyyət tərəfindən belə qəbul edilib. Buna baxmayaraq həmin ərazilər 20 ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Qanlı müharibə nəticəsində Ermənistan Azərbaycan ərazisinin 20 faizini zəbt edib və Cənubi Qafqazı uzunmüddətli münaqişə bölgəsinə çevirib. Bir ölkənin beynəlxalq miqyasda tanınmış ərazilərinin başqa bir ölkə tərəfindən zəbt olunması qəbuledilməzdir.

Yazıda vurğulanır ki, beynəlxalq hüquq açıq-aydın Azərbaycanın mövqeyini dəstəkləyir. Buna görə də Dağlıq Qarabağ münaqişəsi BMT-nin qətnamələrinə uyğun olaraq həll edilməlidir. Ərazi bütövlüyü ilə bağlı nümayiş etdirilən davamlılıq sülhün açarıdır.

Məqalədə vurğulanır ki, əgər beynəlxalq ictimaiyyət Ermənistan-Azərbaycan münaqişəsinə, eləcə də Gürcüstandakı münaqişələrə dair vaxtında ardıcıl münasibət nümayiş etdirsəydi və bu problemlər həll olunsaydı, Ukraynadakı bugünkü faciəvi hadisələr də yaşanmazdı.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında əməkdaşlığın perspektivləri müzakirə olunub



***Aprelin 30-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan-Türkiyə ikitərəfli əməkdaşlıq proqramına əsasən Bakıda səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələri Quru Qoşunları Qərargahının rəisi, korpus generalı İhsan Uyarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Türkiyə Silahlı Qüvvələrinin general və admirallarından ibarət nümayəndə heyətini salamlayan Müdafiə naziri ölkələrimiz arasında hərbi texniki, hərbi təhsil əməkdaşlığının dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib.

Müxtəlif istiqamətlərə cavabdeh olan heyətin belə geniş tərkibdə, qarşılıqlı səfərləri və əlaqəli fəaliyyətlərinin əməkdaşlığımıza töhfə verməsi görüşdə xüsusi vurğulanıb.

İşğal edilmiş torpaqlarımızın azad edilməsinin nəinki Azərbaycan, həmçinin region üçün də əhəmiyyətli olduğunu bildirən Müdafiə naziri xalqımızın işğal faktı ilə barışmayacağını bir daha bəyan edib.

Müxtəlif qoşun növlərinin iştirakı ilə Azərbaycanda, sonra Türkiyədə keçirilən birgə təlimlərin vacibliyini vurğulayan Müdafiə naziri hərbi sahədə qazanılan uğurlara və dəstəyə görə hər iki dövlət başçısına minnətdarlığını ifadə edib.

"Qardaş xalqlarımızın məqsədi regionda sülhə və əmin-amanlığa nail olmaq, bir-birimizə dəstək durmaqdır. Bizim sevincimiz, gücümüz və inkişafımız birliyimizdədir. Təhlükəsizliyimizin qarantı olan Silahlı Qüvvələrimiz daim əlaqələri gücləndirməklə ümumi düşmənimizə qarşı birgə fəaliyyət göstərməlidir", - deyə general-polkovnik Zakir Həsənov bildirib.

Qonaqlar Azərbaycana səfərdən məmnun qaldıqlarını bildirərək qarşılıqlı hərbi münasibətlərin möhkəmləndirilməsində bu cür görüşlərin əhəmiyyətini bir daha qeyd ediblər.

Görüşdə Quru Qoşunlarının mayda Bakı və Naxçıvanda, sentyabrda isə Hərbi Hava Qüvvələrinin silah və texnikasının iştirakı ilə ölkəmizdə birgə hərbi təlimlərin keçirilməsi, o cümlədən ikitərəfli və regional əməkdaşlıq məsələləri müzakirə olunub.

Görüşdə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşesi, briqada generalı Hasan Nevzat Taşdeler də iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto çavuş Vüsal HƏMİDOVUNDUR**

# Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyə Jandarmasının nümayəndəsi ilə görüşüb



***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikası Jandarma Baş Komandanlığının Qərargah rəisi, korpus generalı İbrahim Yaşarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Müdafiə naziri qonağı salamlayaraq Azərbaycanla Türkiyə arasında hərbi sahədə əməkdaşlığın inkişaf etdiyini, strateji tərəfdaşlıq münasibətləri əsasında qurulduğunu və əlaqələrin davamlı olduğunu qeyd edib.

Müdafiə naziri regiondakı hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sabitliyə əsas təhlükə yaratdığını, problemin beynəlxalq hüquq norma və prinsiplərinə uyğun həllinə nail olunmasının vacibliyini diqqətə çatdırıb.

Sonra Azərbaycan və Türkiyə arasında qarşılıqlı təcrübə mübadiləsinin, təlim və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb, əlaqələrin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşesi, briqada generalı Hasan Nevzat Taşdeler də iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# ATƏT-in Minsk Qrupunun həmsədrləri bəyanat yayıblar

ATƏT-in Minsk Qrupunun həmsədrləri birgə bəyanat yayaraq mayın 3-də Dağlıq Qarabağda keçiriləcək "parlament seçkiləri"ni tanımadıqlarını bildiriblər.

AZƏRTAC xəbər verir ki, bəyanatda həmsədr dövlətlərin, eləcə də hər hansı digər ölkənin Dağlıq Qarabağı müstəqil və suveren dövlət kimi tanımadığı qeyd olunur.

Həmsədrlər bəyanatda bildirirlər: "Müvafiq olaraq, biz bu "seçkilər"in nəticələrini Dağlıq Qarabağın hüquqi statusuna təsir edən nəticələr kimi tanımırıq və qeyd edirik ki, bu, Dağlıq Qarabağın yekun statusu və ya münaqişənin uzunmüddətli və sülh yolu ilə həlli üçün aparılan danışıqların gedişi üzərində qabaqcadan heç bir şəkildə hökm verə bilməz".

Bəyanatda, həmçinin Fransa Prezidenti Fransua Ollandın regiona səfərindən bəhs edilir, prezidentlər səviyyəsində dialoqun intensivləşdirilməsi üçün bu ilin sonunadək növbəti görüşün keçirilməsinin vacibliyi qeyd edilir.

## Ali Baş Komandan İlham ƏLİYEV:

# "Bizim bayrağımız tezliklə Xankəndidə, Şuşada, Laçında və digər işğal edilmiş torpaqlarımızda dalğalanacaqdır"



**(Əvvəli 1-ci səhifədə)**

Burada Vətəninə, xalqına sadiq, hər an torpaqlarımız uğrunda canından belə keçməyə hazır olan Azərbaycan övladları xidmət edir. Ordumuzun gücü şəxsi heyətin vətənpərvərliyində, qəhrəmanlığında və peşəkarlığındadır. Mən bu keyfiyyətləri Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətində görürəm.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin "düşmənin ayaqlarının altında torpaq od tutub yanmalıdır" sözləri qarşımızda mühüm vəzifələr qoyur. Bu vəzifələr bizim üçün bir hədəfdir.



Düşmənin kəşfiyyat-təxribat cəhdlərinin qarşısının qətiyyətlə alınması, onun xeyli sayda itkilərə məruz qalması, mənəvi-psixoloji vəziyyətinin sarsıdılması və müqavimətinin sındırılması ilə Ermənistanın hərbi-kriminal rejimi Silahlı Qüvvələrimizin gücünü və qüdrətini hiss etdi. Bununla da düşmənin əməliyyat və fəaliyyət imkanlarının məhdudlaşdırılmasının birinci mərhələsi uğurla başa çatdırıldı.

Bu gün əminliklə bəyan edirik ki, ordumuz bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət etməklə tam hərbi üstünlüyə yiyələnib. Biz düşmənə gücümüzü göstərməklə onlara aydın mesaj verdik. Bu mərhələdə tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsində fəaliyyət göstərən Xüsusi Təyinatlı Qüvvələrin rolunu qeyd etmək vacibdir.

İndi isə qarşımızda daha vacib - ikinci mərhələ dayanır. Düşmənə qəti və sarsıdıcı zərbələr endirməklə onu işğal olunmuş Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməyə məcbur etmək. Biz bu vəzifənin öhdəsindən gəlməyə qadirik və qısa müddətdə buna nail olacağıq. Buna heç kim şübhə etməsin.

Hamımız Ali Baş Komandanın əmrinə daim hazır olmalıyıq. Bunun üçün Silahlı Qüvvələrin şəxsi heyəti gecə və gündüz döyüş hazırlığı səviyyəsini durmadan daha da artırır. Azərbaycan xalqı, dövlət rəhbərliyi Silahlı Qüvvələrimizə, o cümlədən xüsusi təyinatlılarımıza inanır, fəaliyyətinizə yüksək qiymət verir və sizinlə fəxr edir. Biz də öz növbəmizdə bu yüksək etimadı doğrultmağa daim hazır olmalıyıq. Bir daha sizi təbrik edərək xidmətinizdə uğurlar arzulayıram".

Sonra hərbi xidmətdə fərqlənmiş şəxsi heyətin mükafatlandırılması haqqında Müdafiə nazirinin əmri oxunub. Hərbi qulluqçulara medallar, fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim edilib.

Təntənəli mərasimdən sonra xüsusi təyinatlılar soyuq və atıcı silahların istifadəsi, helikopter və avtomobillə pusquya qarşı fəaliyyət, yaxın döyüşdə tapşırıqların icrası üzrə müxtəlif fəndləri məharətlə icra ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar çavuş Vüsal HƏMİDOVUNDUR**

# Ali Baş Komandanın tapşırığına əsasən Müdafiə naziri hərbi hissələrdə tikinti işlərini yoxlayıb

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, hərbi hissələrdə tikinti və yenidənqurma işləri sürətlə davam etdirilir.***





Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi hissələrdə aparılan əsaslı tikinti işlərinin gedişi ilə maraqlanıb.

Nazirliyin rəhbərliyi əvvəlcə hərbi şəhərciklərdə zəruri infrastrukturla yanaşı, müasir tələblərə cavab verən, bütün məişət şəraiti ilə tam təmin edilmiş ailəli hərbi qulluqçular üçün inşa edilən mənzillərə baxış keçirib.

Sonra Müdafiə naziri inşası davam etdirilən müasir tipli qərargah binası, əsgər yeməkxanası, kazarma, subay hərbçilər üçün yataqxana kompleksi, qazanxana-camaşırxana və digər inzibati obyektlərdə işlərin qısa müddətdə sona çatdırılması üçün müvafiq tapşırıq və tövsiyələrini verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**







*Milli Qəhrəmanlarımız*

# Dillərdə əzbər olan igid



***Keçən əsrin 80-ci illərinin sonlarında Azərbaycanımızın göz bəbəyi, Natəvanımızın, Üzeyirimizin, Xanımızın, Bülbülümüzün, doğma yurdu, alınmaz qalamız Şuşa sanki fırtınalı, tufanlı bir dənizə bənzəyirdi. Qarı düşmənTopxana meşəsinə göz dikmişdi...***

Ruhunda qurub yaratmaq həvəsi hakim olan Ramiz ağlına belə gətirməzdi ki, nə vaxtsa şuşalılar Şuşasız haray çəkəcəklər. Vətənin ağır günlərində Ramiz də erməni qəsbkarlarına qarşı mübarizəyə qoşulur.

Bu gənc kim idi?

Ramiz Bulud oğlu Qəmbərov dünyaya 1962-ci il 2 iyulda qədim Şuşada göz açmışdı. İki illik hərbi xidmətdən sonra - 1986-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olur. 1988-ci ildə xalq hərəkatına qoşulan Ramiz erməni təcavüzünə qarşı ilk mübarizə aparanlardan biri olur. Ramizin qəlbinə bu müqəddəs kəlmələr hakim kəsilmişdi: Millət, Vətən, Torpaq, Azadlıq! Elə bu məqsədlə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında fəal iştirak edir, imperiyanın ədalətsiz qərarlarına qarşı haqq səsini ucaldır.

O, 1992-ci ildə könüllülərdən ibarət batalyon yaradır. Erməni qəsbkarları 29 aprel 1992-ci ildə Kosalar və Kərkicahan kəndləri yaxınlığındakı mövqelərə hücuma keçirlər. R.Qəmbərov batalyonu ilə köməyə gedir. Bu qeyri-bərabər döyüşdə Ramiz yaralanır. Bir gün sonra, 1992-ci il aprelin 30-da gözlərini əbədi yumur, şəhidlik zirvəsinə yüksəlir. Şuşanın qəhrəman oğlu doğma elində torpağa tapşırılır. Bu gün Bakıda Şəhidlər xiyabanında rəmzi qəbri var. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli fərmanı ilə Ramiz Bulud oğlu Qəmbərov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülür. Bakı şəhərində küçələrdən biri onun adını daşıyır.

Qəhrəmanlığı dillərdə dastan olan Vətən oğlunun ölümündən 23 il keçir. Bu günlərdə Hərb Tarixi Muzeyi və Şuşa rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə qəhrəmanın anım tədbiri keçirilib. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin büstü önünə əklil qoyublar. Sonra tədbir ümummilli liderimizin və torpaqlarımızın azadlığı uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsinin yad edilməsi, Dövlət himninin səsləndirilməsi ilə davam edib. Şuşa rayon İcra Hakimiyyətinin başçısı, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" ictimai birliyinin rəhbəri Bayram Səfərov anım tədbirini açaraq bildirib ki, bu gün Silahlı Qüvvələrimizin müdafiə qabiliyyəti, şəxsi heyətinin peşəkarlığı, müasir silah və texnika ilə təchizatı düşməni qorxudur. "Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi, erməninin Ağdamda, Füzulidə nə işi var ki, onu öldürsünlər. Biz yenilməz ordumuza güvənərək Şuşamıza, Qarabağımıza, işğal altında olan digər torpaqlarımıza dönəcəyik. Canını Vətən, torpaq uğrunda qurban vermiş Ramiz kimi bütün şəhidlərimizin narahat ruhları o zaman şad olacaq", 




- deyə icra başçısı qeyd edib.

Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxış edərək Azərbaycanın Milli Qəhrəmanı Ramiz Qəmbərovun qısa, lakin şərəfli ömür yolunun gənc nəslə dəyərli nümunə olduğunu vurğulayıb.

"Yaddaş" film studiyasının istehsalı olan, Kəmalə Musazadənin müəllifliyi və rejissorluğu ilə araya-ərsəyə gələn, Azərbaycanın Milli Qəhrəmanı Ramiz Qəmbərovun döyüş yolundan bəhs edən film tədbir iştirakçılarına kövrək, həm də qürurlu anlar yaşadıb.

Qəhrəmanın döyüşçü yoldaşları - ehtiyatda olan kapitan Aqil Həsənov, İbrahim Məmmədov, Milli Məclisin deputatı Elman Məmmədov qəhrəmanla bağlı xatirələrindən danışıblar.

Övlad dərdindən illərdir için-için qovrulan Səkinə ana ön sırada əyləşənlər arasında idi. İllərdir söz təskinliyinə söykənib dayanan, sağlığında heykəlləşən bu ağ saçlı nurani ana müqəddəslik rəmzidir. Çünki o, Ramiz kimi qəhrəmanın anasıdır.

Anım tədbiri Şuşa Dram Teatrının aktyorları Şükufə Musayevanın və Teymur Məmmədovun ifasında vətənpərvərlik ruhunda şeirlərin səsləndirilməsi ilə başa çatıb.



**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Ordu və cəmiyyət*

# Dünənin qəhrəmanlığı bu günümüzə örnəkdir



Qarabağ müharibəsi başlananda Vətənin müdafiəsinə atılan Əfqanıstan veteranları arasında mən də vardım. Yaxşı xatırlayıram, ümummilli liderimiz Heydər Əliyev bizə - Əfqanıstan müharibəsi iştirakçılarına tarixi müraciətində döyüş təcrübəsi olan insanlara güvəndiyini bildirmişdi. Onda cəbhə bölgələrində vəziyyət çox ağır idi, orduda peşəkar döyüşçülərin çatışmaması ciddi itkilərə səbəb olurdu. Təlim görməyən və döyüş təcrübəsinə malik olmayan gənclərin əksəriyyəti hərbi əməliyyyatlarda təsadüfi qurbanlara çevrilirdi. Amma böyük öndərin rəhbərliyi və təşkilatçılığı ilə formalaşan Silahlı Qüvvələrimiz qısa bir vaxtda müharibədə öz sözünü dedi. İşğalçı Ermənistan cəbhə xəttində ciddi müqavimətə dözməyərək atəşkəsi imzalamağa məcbur oldu.

Biz müharibənin od-alovunda bərkimiş keçmiş döyüşçülər olaraq ağır hərbi əməliyyatlarda qətiyyətlə vuruşurduq. Gədəbəy, Kəlbəcər ətrafında gedən qanlı döyüşlərdə iştirak etdim və ağır yaralandım. Bu gün Qarabağ müharibəsi əlili olaraq yenə də özümü döyüşlərdə hiss edirəm. Böyük türk xalqı bu günlərdə Çanaqqala zəfərinin yüzilliyinin sevincini yaşadı. Əlbəttə, bu tarixi qələbə üçün biz də sevinirik. Amma Qarabağ müharibəsi nəticəsində itirilən torpaqlarımıza görə, yurd-yuvasından didərgin salınan soydaşlarımıza və günahsız qətlə yetirilən insanlarımıza görə ağrı çəkirik. Bəzən müharibədə itirdiklərimizə görə ordunu günahlandırırlar, bu fikirlə qətiyyən razı deyiləm. Ümumilikdə müharibəni dövlət və xalq aparır. Müstəqilliyin ilk illərində Azərbaycanın naşı siyasətçilər tərəfindən idarə edilməsi ölkədə xaos yaratdığı üçün düşmənlərimiz belə şəraitdən vaxtında yararlana bildilər.

Mənə elə gəlir ki, müharibədə qələbə qazanmağın əsas yolu gənclərin Vətənə, xalqa və dövlətçiliyə sədaqət ruhunda tərbiyə edilməsindən keçir. Doğrudur, böyük öndər Heydər Əliyevin əsasını yaratdığı vətənpərvərlik işini davam etdirmək üçün müasir dövrdə dövlətimizin rəhbərliyi tərəfindən məqsədyönlü siyasət yürüdülür. Yaxşı olardı cəmiyyətin əksəriyyəti bu vacib sahədə vətəndaşlıq borcunu dərindən hiss etsin və öz köməyini əsirgəməsin. Bu sahədə son vaxtlar Müdafiə Nazirliyinin bölgələrdə həyata keçirdiyi genişmiqyaslı hərbi vətənpərvərlik tədbirlərini xüsusi qeyd etmək istərdim. Faşizm üzərində tarixi qələbənin 70-ci ildönümü ərəfəsində belə tədbirlər geniş vüsət alıb. Böyük Vətən müharibəsində qazanılan qələbədə xalqımızın əhəmiyyətli rolunu bugünkü nəslə təbliğ etmək təqdirəlayiqdir, qoy müasir Azərbaycan gəncliyi qəhrəman bir xalqın yetirməsi olduğunu unutmasın və bu qəhrəmanlıq ənənələrini layiqincə davam etdirməyə hazır olsun.

Bir müharibə iştirakçısı, həm də bu xalqın bir övladı kimi 70 il öncə Azərbaycanın böyük qələbənin təmin edilməsinə verdiyi tarixi töhfələrdən qürur hissi duyuram və arzu edirəm ki, tez bir zamanda erməni faşizmi üzərindəki qələbəmizi də qeyd edək. İnanıram ki, Ali Baş Komandanımızın rəhbərliyi ilə bu qələbəni tezliklə bayram edəcəyik.

**Dilqəm BAĞIROV,**
**Qarabağ**
**müharibəsi əlili**

# Xarici ölkələrin Azərbaycandakı hərbi attaşeləri hərbi hissəni ziyarət ediblər

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, ölkəmizdəki xarici ölkə səfirliklərinin hərbi attaşeləri bu günlərdə "N" hərbi hissəsini ziyarət ediblər. 13 ölkəni təmsil edən hərbi attaşeləri hərbi hissənin məsul nümayəndələri qarşılayıblar. Onlar üçün brifinq keçirilib. Gəncə şəhərinin qədim tarixi və hazırda orduda həyata keçirilən tədbirlər barədə hərbi attaşelərə geniş məlumatlar verilib.***



Əsgər yataqxanalarında, məşğələ otaqlarında və yeməkxanada olan hərbi attaşelər ordumuzun müasir məişət şəraitindən məmnun qalıblar.

Sonra qonaqlar sıra meydanında məşğələ keçən şəxsi heyətin döyüş bacarıqlarına tamaşa ediblər. Əsgərlərimizin hazırlığı qonaqlarda xoş təəssürat yaradıb.

Ziyarət proqramına uyğun olaraq hərbi attaşelər dahi Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsində olublar. Onlara görkəmli şair və mütəfəkkirin həyatı və yaradıcılığı barədə geniş məlumat verilib.

Səfər təəssüratlarını, Silahlı Qüvvələrimiz barədə dəyərli fikirlərini bölüşən qonaqlar səfərin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Sülhməramlılarımızın bir qrupu Vətənə qayıdıb



***Əfqanıstan İslam Respublikasında sülh missiyasını yerinə yetirən sülhməramlı bölüyümüzün bir qrup döyüşçüsü aprelin 29-da Vətənə qayıdıb.***

- Bizim sülhməramlı kontingent 2002-ci ildən beynəlxalq qüvvələrin tərkibində sülhyaratma əməliyyatlarında uğurla iştirak edir, - "N" hərbi hissəsinin zabiti mayor Anar Cavadov bildirdi. - Həmin kontingentin bir hissəsi rotasiya qaydasında üç aydan bir dəyişdirilir.

Artıq bir neçə ildir ki, sülhməramlılarımız xeyirxah missiyanı şərəflə yerinə yetirirlər. Onlar xalqımıza, dövlətimizə, Silahlı Qüvvələrimizə başucalığı gətirirlər.

Sülhməramlılarımız Əfqanıstan İslam Respublikasında patrul xidməti həyata keçirir, piyada və nəqliyyat vasitələrinin yoxlanmasını təşkil edir və strateji obyekt kimi Kabil televiziyasının mühafizəsilə məşğul olurlar. Azərbaycandan olan xeyirxah missiyanın daşıyıcıları eyni zamanda NATO-nun vacib obyektlərini də qoruyurlar. Hazırda sülhməramlı bölüyümüz dislokasiya olunduğu bazanın mühafizəsini təmin edir.

Sülhməramlı bölüyümüzün xidməti barədə hərbi hissə komandanlığı müntəzəm məlumat alır və xeyirxah missiyanın daşıyıcılarının fəaliyyətini daim nəzarətdə saxlayır, - deyə zabit söhbətinə davam etdi. - Məlum olduğu kimi, bizim sülhməramlılar Türkiyə kontingentinin tərkibində xidmət edir. Gündəlik olaraq bölük komandiri hərbi hissə ilə rabitə əlaqəsi saxlayır.

Əfqanıstanda əmin-amanlığın təmin edilməsinə öz töhfəsini vermiş, öz hazırlığı və peşəkarlığı ilə ölkəmizə şərəf gətirmiş neçə-neçə Vətən oğlu sülhməramlı missiyada nümunəvi xidmətinə görə medalla təltif edilib.

Xatırladırıq ki, Vətənə qayıtmış sülhməramlılarımızı təxminən yarım ay öncə NATO-nun həyata keçirdiyi "Qətiyyətli Dəstək" adlı qeyri döyüş missiyasının tərkibində bu ölkədə əmin-amanlığın yaradılması ilə bağlı Kabilə göndərilmiş bir qrup sülhməramlı hərbi qulluqçumuz əvəz edib.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***30 aprel 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 64 dəfə pozub.

Ermənistan Respublikasının Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərindən Qazax rayonunun Kəmərli kəndində və Berd rayonunun Çinari kəndində yerləşən mövqelərindən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Çaylı, Qızıloba, Ağdam rayonunun Şuraabad, Şıxlar, Cəvahirli, Sarıcalı, Yusifcanlı, Şirvanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Aşağı Əbdürrəhmanlı kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

***1 may 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 76 dəfə pozub.

Ermənistan Respublikasının Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərindən Qazax rayonunun Kəmərli kəndində, Berd rayonunun Çinari və Mosesqex kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Ağbulaq, Ağdam kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Çaylı, Qızıloba, Ağdam rayonunun Şuraabad, Şıxlar, Cəvahirli, Sarıcalı, Yusifcanlı, Şirvanlı, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Aşağı Əbdürrəhmanlı kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

# Xəbərlər: hadisələr, faktlar

## Seçicilərin 97,5 faizi Nursultan Nazarbayevə səs verib



Qazaxıstanda keçirilən növbədənkənar prezident seçkilərində seçicilərin 97,5 faizi Nursultan Nazarbayevə səs verib. Bunu Mərkəzi Seçki Komissiyasında təşkil olunan brifinqdə Demokratiya İnstitutunun direktoru Yuliya Kuçinskaya bildirib.

O qeyd edib ki, institut bütün regionlarda, eləcə də Astana və Almatıda ümummilli exitpol keçirib. Exitpol nəticəsində səslərin belə bölüşdüyü müəyyənləşib: Nursultan Nazarbayev - 97,5 faiz, Abelqazi Kusainov - 0,63 faiz, Turqun Sızdıkov -1,87 faiz.

Beynəlxalq və yerli ekspertlərin fikrincə, bu seçkilərdə görünməmiş seçici fəallığı qeydə alınıb. Belə ki, ilkin məlumatlara görə, səsvermədə seçicilərin 95,11 faizi iştirak edib.

## Nepalda zəlzələ qurbanlarının sayı durmadan artır



Nepalda aprelin 25-də baş vermiş zəlzələnin qurbanlarının sayı, demək olar, hər saat artır.

Reuters agentliyi xəbər verir ki, Nepal Daxili İşlər Nazirliyi nümayəndələrinin məlumatına görə, indiyədək 3218 nəfərin həlak olduğu, 6800 nəfərin yaralandığı məlumdur. Hələlik, minlərlə insanın taleyindən heç bir xəbər yoxdur. Ölkədə rabitə normal işləmir, infrastruktur dağılıb.

KİV-in məlumatına görə, zəlzələ qurbanlarının sayı 8 minədək yüksələ bilər.

## Norveç hökuməti müdafiə xərclərini artıracaq



Norveç hökuməti müdafiə xərclərinin artırılmasına dair planlarını elan edib. Bu, Norveçin baş naziri Erna Sulberqin bəyanatından aydın olub.

Bundan əvvəl ölkənin müdafiə naziri İne Eriksen Söreyde hökumətə krallığın müdafiə xərclərinin 3,6 milyard krona (470 milyon dollar) artırılmasını nəzərdə tutan plan təqdim etmişdi. Bu vəsaitin hərbi bazaların yenidən qurulmasına, yeni hərbi texnikanın alınmasına, habelə ölkənin hərbi qüvvələrinin modernləşdirilməsinə sərf olunması nəzərdə tutulur.

## Ukraynada Çernobıl faciəsinin ildönümü qeyd edilir



Ukraynanın paytaxtı Kiyevdə Çernobıl faciəsi qurbanlarının xatirəsi anılıb. Qeyd edək ki, 1986-cı il aprelin 26-da Çernobıl atom-elektrik stansiyasının 4-cü enerji blokunda partlayış baş vermişdi. Nəticədə 17 milyon insanın yaşadığı 11 rayonun atmosferi zəhərlənib.

Qəza nəticəsində ümumilikdə 7 minə yaxın insan həlak olub, 25 min nəfər güclü radiasiya nəticəsində ömürlük şikəstliklə üzləşib, on minlərlə insan isə sonsuz qalıb.

Qəzanın nəticələrinin aradan qaldırılması üçün 1986-ci ildə Çernobıla 7 min azərbaycanlı da göndərilmişdi. Onların 2 min nəfəri şüalanmadan vəfat edib.

## Fizika müəllimi İŞİD-in müvəqqəti lideri seçilib



İŞİD terrorçu qruplaşmasının lideri Əl-Bağdadinin ağır yaralanmasından sonra yaraqlıların yeni lideri Əbu Əlya Əl-Əfri seçilib.

AZƏRTAC Rusiyanın NTV telekanalına istinadla xəbər verir ki, Əbu Əlya Əl-Əfri ləqəbi ilə tanınan Əbdurrəhman Mustafa əl-Şeyxlar hava zərbələri nəticəsində yaralanan Əbu Bəkr Əl-Bağdadinin vəzifələrini müvəqqəti icra edəcək.

Hələ martda yaralanan Əl-Bağdadinin səhhəti haqda heç bir məlumat yoxdur. Bəzi ərəb KİV-ləri hətta onun həlak olduğunu da yazırlar.

İxtisasca fizika müəllimi olan Əl-Əfrinin isə İŞİD iyerarxiyasında sürətlə irəliləyən gözəl natiq olduğu bildirilir.

## Suriya müxalifəti Cisr əş-Şuqur rayonunun böyük hissəsini ələ keçirib



Suriya müxalifəti Cisr əş-Şuqur rayonunun böyük hissəsində nəzarəti ələ keçirib.

AZƏRTAC Anadolu informasiya agentliyinə istinadla xəbər verir ki, səhra komandirlərindən biri Əbu Kuteydə "Qələbə" kodu altında aparılan əməliyyatlar nəticəsində Cisr əş-Şuqur rayonundakı hərbi postların, qənnadı fabrikinin və İdlib şəhərindəki bəzi strateji məntəqələrin Bəşər Əsəd ordusundan təmizləndiyini bildirib.

Onun sözlərinə görə, regionun böyük hissəsi müxalifətin nəzarətinə keçib. Rejim qüvvələrinin mənzil-qərargahı kimi istifadə olunan xəstəxana uğrunda isə ağır döyüşlər davam edir. Prezidentə sadiq qüvvələrin ağır itkilər verdiyi bildirilir.

## Çanaqqalada qeyri-adi televiziya qülləsi inşa olunub



Türkiyənin Çanaqqala şəhərində qeyri-adi televiziya və radio qülləsi inşa edilib.

Memar və inşaatçılar qüllənin tikintisini türk və dünya tarixinə ən qanlı döyüşlərdən biri kimi düşmüş məşhur Çanaqqala döyüşünün 100 illik yubileyi ərəfəsində başa çatdırıblar.

Əyilmiş lenti xatırladan qüllə şəhərin görməli yerlərindən birinə, həm də sakinlərin istirahət mərkəzinə çevrilib. Meşə ilə tam əhatə olunan televiziya qülləsindən şəhərə gözəl və əsrarəngiz bir mənzərə açılır.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

Qələbə - 70

# "Babalarımızın qəhrəmanlıq ənənələrini yaşadaq!"

## Zərdabda Şöhrət ordeninin hər üç dərəcəsinin kavaleri Muradalı Heydərovun şərəfinə tədbir keçirilib



***Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatında qeyd edildiyi kimi, 1941-1945-ci illər müharibəsində faşizm üzərində qələbənin 70 illiyi ərəfəsində Zərdabda Şöhrət ordeninin hər üç dərəcəsinin kavaleri, 94 yaşlı Muradalı Heydərovun şərəfinə tədbir keçirilib.***

Əvvəlcə bir qrup müharibə veteranı, rayon ictimaiyyətinin nümayəndələri və qonaqlar ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Heydər Əliyev Mərkəzinin ekspozisiyası ilə tanışlıqdan sonra Müdafiə Nazirliyi və Zərdab rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Babalarımızın qəhrəmanlıq ənənələrini yaşadaq!" devizi altında mərasim başlanıb.

Tədbirdə qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planı"ndan irəli gələn vəzifələr ölkəmizin hər yerində olduğu kimi, Zərdab rayonunda da uğurla həyata keçirilir.

Mərasimi Zərdab rayon İcra Hakimiyyətinin başçısı Lütfəli Babayev açaraq bildirib ki, zərdablılar Böyük Vətən müharibəsinin ilk günlərindən başlayaraq, həm ön, həm də arxa cəbhədə qələbə naminə böyük fədakarlıqlar göstəriblər. Cəbhəyə yollanmış 3384 nəfər Zərdab sakinindən 1407 nəfəri döyüş meydanlarında qəhrəmanlıqla həlak olub. 1977 nəfər isə müharibədən qayıtdıqdan sonra da əmək cəbhələrində Vətənə sədaqətlə xidmət edib. Hazırda Silahlı Qüvvələrin ayrı-ayrı qoşun növlərində yüzlərlə zərdablı əsgər və zabit xidmət edir. 118 nəfər zərdablı vətənpərvər Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və dinc əhalinin təhlükəsizliyinin qorunması uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.




"Qələbə günü" mahnısının sədaları altında vaxtilə xidmət etdikləri Azərbaycan milli diviziyalarının bayraqları ilə salona daxil olan veteranları tədbir iştirakçıları ayaq üstə alqışlarla qarşılayıb və onların hər birinin döyüş yolu barədə məlumat verilib.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Müdafiə naziri general-polkovnik Zakir Həsənovun veteranlara təbrikini oxuyub.

Sonra isə kavaler ordenli Muradalı Heydərova Müdafiə nazirinin təbriki və qiymətli hədiyyəsi təqdim edilib. Təbrikdə deyilir: "Hörmətli Muradalı Şavaqat oğlu! Sizin mənalı həyat və döyüş yolunuz gənclərimiz üçün örnəkdir. Ukrayna, Belorus cəbhələrində, Polşanın faşistlərdən azad edilməsində göstərdiyiniz qəhrəmanlıqlara görə siz 3-cü və 2-ci dərəcəli Şöhrət ordenləri ilə təltif olunmuş, dəfələrlə yaralanmağınıza baxmayaraq döyüş meydanını heç vaxt tərk etməmisiniz. Berlin uğrunda gedən döyüşlərdə komandiri olduğunuz top heyəti düşmənin 6 pulemyotunu, döyüş sursatı ilə dolu 6 avtomobilini, 2 topunu və 20-yə yaxın əsgər və zabitini məhv etmişdir. Siz isə 1945-ci ilin ilk may günündə düşmənin atəşi altında topunuzu irəli çəkərək, çox yaxın məsafədən atıcı bölmələrin irəliləməsinə mane olan istehkam qurğularını dağıtmış və bu igidliyiniz Şöhrət ordeninin 1-ci dərəcəsinə layiq görülmüşdür.




1946-cı ildə Vətənə qayıtdıqdan sonra əmək cəbhəsində də həmişə adınız yarış qaliblərinin ön sıralarında çəkilmişdir. 1-ci və 2-ci dərəcəli Böyük Vətən müharibəsi ilə yanaşı, sizin sinənizi əmək medalları da bəzəyir. Siz 1995-ci ildə Moskvada keçirilən qələbə paradının iştirakçısı, fərdi Prezident təqaüdçüsüsünüz. Yaşınızın 93-ü ötməsinə baxmayaraq, siz bu gün də gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsində yaxından iştirak edir, Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun yüksəldilməsində səylərinizi əsirgəmirsiniz.

Hörmətli Muradalı Şavaqat oğlu!

Bir daha sizi qələbə günü münasibətilə ürəkdən təbrik edir, sonrakı ömür payınızı da nəvə-nəticələrinizlə birlikdə şad-firavan yaşamanızı arzulayıram".

Muradalı Şavaqat oğlu veteranlara göstərilən diqqət və qayğıya görə silahdaşları adından Prezident İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib. O deyib: "Respublikamızda keçiriləcək birinci Avropa Oyunlarının məşəlinin bir neçə gün öncə Atəşgahda alovlandırılması və bu məşəlin ölkəmizdə bölgə-bölgə gəzdirilməsi biz veteranların da hədsiz sevincinə səbəb olub. Biz Avropanı faşizmdən xilas etdik, indi də Avropa gündən-günə çiçəklənən Azərbaycana idman, dostluq bayramına gəlir. Bu, ölkəmizin böyük qürurudur".

Sonra "Xalq ordunun, ordu xalqın dayağı" kitab-albomunun təqdimatı olub. İlk nüsxələr müharibə veteranlarına və gənclərin hərbi vətənpərvərlik tərbiyəsində xüsusi xidməti olanlara təqdim edilib.

Sonda veteranlar və tədbir iştirakçıları ilk Avropa Oyunlarının məşəlini qarşılamaq üçün Zərdabda görülən işlərlə tanış olub, xatirə şəkilləri çəkdiriblər.

Muradalı Heydərov ön səngərdəki topçularla görüşmək üçün cəbhə bölgəsinə yola salınıb.




# "Çanaqqala keçilməz"

***Əlahiddə Ümumqoşun Ordusunda Çanaqqala zəfərinin yüz illik yubileyi münasibəti ilə silsilə tədbirlər keçirilib. Belə tədbirlərdən biri Təlim və Tədris Mərkəzində baş tutub.***

Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-Psixoloji Təminat Şöbəsinin rəisi polkovnik Mirqiyas Rüstəmov tədbiri açıq elan edərək bildirib ki, Birinci Dünya müharibəsi zamanı Türkiyənin Gelibolu yarımadasında Osmanlı dövləti ilə Antanta İttifaqı arasında dəniz və quru döyüşləri olmuşdur. Düşmən qüvvələri ilk hədəf kimi Çanaqqala boğazını seçmişdilər. Osmanlı ordusu say baxımından az, təchizat baxımından zəif olsa da, düşmənin bütün hücumlarını qəhrəmanlıqla dəf etməyi bacarıb və bu döyüşlərdə minlərlə şəhid verib. Tarixi mənbələrə görə Osmanlı ordusunun şəhidləri arasında 3 mindən artıq azərbaycanlı olmuşdur. 100 ildir ki, Çanaqqala döyüşü Türk dünyasının möhtəşəm qələbəsi kimi əfsanələşib.

Tədbirdə hərbi qulluqçulardan ibarət bədii-özfəaliyyət kollektivinin maraqlı çıxışları əsgərlər tərəfindən alqışlarla qarşılanıb. Sonda hərbi vətənpərvərlik mövzusunda film və slaydlara baxış olub.

* * *

Çanaqqala zəfərinin yüz illik yubileyi münasibəti ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında da tədbir keçirilib.

Əvvəlcə Azərbaycan və Türkiyə, eləcə də Çanaqqala şəhidlərinin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Polkovnik Mirqiyas Rüstəmov, AMEA Naxçıvan bölməsinin Tarix-Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini professor Qədir Qadirzadə, Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulunun vəkili Ahmed Özkan, Naxçıvan Müəllimlər İnstitutunun rektoru professor Oruc Həsənli və digər çıxış edənlər vurğulayıblar ki, Çanaqqala döyüşlərində türk əsgəri şücaəti ilə tarix yazıb. Türk əsgərinin yenilməzliyini düşmənlər də etiraf edərək "Çanaqqala keçilməzdir!" ifadəsini işlətmişlər.

Tədbirdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları, Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri və Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri hərbi vətənpərvərlik şeirləri ilə çıxış ediblər. Hərbi qulluqçulardan ibarət instrumental ansamblın çıxışı da rəğbətlə qarşılanıb.

**Nəriman NƏCƏFOV,**
**Naxçıvan**

# 6 əsgər böyütmüş Əfruz ana



***Doğma Bakımızın qədim Qobu kəndində yaşayan Əfruz ana 11 övlad böyüdüb tərbiyə edib. Onlardan 5-i qız, 6-sı isə oğlandır. Oğlanlarının 5-i də Silahlı Qüvvələrdə xidməti vəzifəsini şərəf və ləyaqətlə yerinə yetirib. Əfruz ananın sonuncu oğlu Hikmət Həsənov Vətənimizə övlad borcunu ödəmək üçün bu günlərdə ordu sıralarına yola düşüb. Altı əsgər anası olmaq heç də hər valideynə nəsib olan bir səadət deyil. Bu mənada Əfruz ana xoşbəxt bir insan, bəxtəvər bir anadır.***

- Vətən üçün 6 əsgər böyüdən Əfruz anaya, eləcə də başqa analara böyük hörmət və rəğbətimiz var, - deyə polkovnik-leytenant Vüsal Babayev bildirdi. - Əfruz ananın 5 övladı ordu sıralarında xidmətlərini başa vuraraq geri dönüblər. Bu günlərdə onun sonuncu oğlu Hikmət Həsənovu hərbi xidmətə yola saldıq.

Xidmətin Abşeron rayon nümayəndələri mayor Elşad Fərəcov, qulluqçular Kərəm Camalov və Müşfiq Vəliyevlə birlikdə Əfruz ananı 6-cı övladının ordu sıralarına yola düşməsi münasibəti ilə təbrik etmək üçün Qobu kəndinə yola düşdük. Qobu kəndi gündən-günə gözəlləşir. Yazın nəfəsini hiss edən torpaq oyanır, dərələr, düzlər yaşıl libasa bürünür.

Altı əsgər anası Əfruz ana bizi həyətdə qarşıladı. Onun çöhrəsindən nur yağırdı. Gözləri sevinc içindəydi. Mayor Elşad Fərəcov gül dəstəsini, şirniyyat qutusunu ona verib Vətən üçün dəyərli övladlar böyütdüyünə görə Əfruz anaya minnətdarlıq etdi.

Sonra çay süfrəsi arxasında oturub söhbət edə-edə 6 əsgər anasının keçdiyi ömür yoluna qısaca nəzər saldıq. 1954-cü ildə dünyaya göz açmış Əfruz ana 1973-cü ildə Faiz adlı bir gənclə ailə həyatı qurub. 11 övladı dünyaya gəlib. Öyrəndim ki, həyat yoldaşı Faiz sadə bir peşə sahibi olub. C.Əmirov adına Neft və Qazçıxarma İdarəsində sürücü işləyib. 2010-cu ildə isə dünyasını dəyişib.

Əfruz ananın böyük övladı Heydər Həsənov Qarabağ müharibəsində iştirak edib. Torpaqlarımızın azadlığı uğrunda vuruşub. O biri övladları da Vətənə ləyaqətlə xidmət ediblər.

Əfruz ana bizi gülərüzlə yola saldı. Ona diqqət və qayğı göstərdiklərinə görə həm Respublika Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisinə, həm də xidmətin Abşeron rayon şöbəsinin kollektivinə minnətdarlıq etdi.

Anaların ürəklərində həmişə övladlarına ülvi arzular kök salır. Yəqin ki, 6 əsgər anasının də ürəyində arzular var. Biz Əfruz anagilin həyətindən çıxanda gözüm yenicə çiçəkləmiş albalı ağacına sataşdı. İnanıram ki, gün gələcək Əfruz ananın ürəyindəki arzular da bu albalı ağacı kimi çiçəkləyəcək.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

Leytenant Əhmədov Laçın Səfiyar oğluna 2014-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əlağa Şıxlinski - 150

# Sərkərdənin xatirəsi anıldı




***Azərbaycan Xalq Cümhuriyyəti zamanında ordumuzun formalaşdırılmasında müstəsna xidmətləri olan tam artilleriya generalı Əlağa Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi haqqında dövlət başçısının sərəncamına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına müvafiq olaraq yubiley tədbirləri davam edir.***

Bu günlərdə Hərb Tarixi Muzeyinin təşkilatçılığı ilə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində növbəti belə tədbir keçirilib.

Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladlarının xatirələri bir dəqiqəlik sükutla yad edilib. Sonra tədbiri Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin rəisi I dərəcəli kapitan Əlimərdan Quliyev açaraq qeyd edib ki, hərb tariximizin səhifələrində adı qızıl hərflərlə həkk olunan generalın yubiley tədbirinin məktəbimizdə də keçirilməsi qürurvericidir. Onun həyat və fəaliyyəti ordumuzun şəxsi heyəti üçün örnəkdir.

Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxışında bu gün müstəqil Azərbaycan Respublikasının hər bir vətəndaşının unudulmaz hərbçinin keçdiyi şərəfli ömür və döyüş yolundan xəbərdar olmağa borclu olduğunu bildirib. "Azərbaycan xalqının sərkərdə oğlu Əlağa Şıxlinskinin 1918-ci il sentyabrın 15-də Nuru paşa ilə birlikdə Bakının bolşevik-daşnak qüvvələrindən azad olunmasındakı xidmətləri hər bir azərbaycanlının yaddaşında əbədi yaşayacaq", - deyə muzeyin rəisi bildirib.

Hərbi təhsil ocağının müəllim və kursant heyətinin iştirak etdiyi tədbirdə muzeyin əməkdaşları Türkan Novruzovanın və Sevər Həsənovanın da çıxışları maraqla dinlənilib.

Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin əməkdaşı, ehtiyatda olan ədliyyə polkovnik-leytenantı Ülvi Şıxlinski ulu babasının anadan olmasının 150 illik yubileyinin keçirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova və digər təşkilatlara öz minnətdarlığını ifadə edib.

Sonda Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin rəisi I dərəcəli kapitan Əlimərdan Quliyev muzey əməkdaşlarını fəxri fərmanlarla mükafatlandırıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

***Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və yerli hakimiyyət orqanlarının birgə təşkilatçılığı ilə mədəni-kütləvi tədbirlərin keçirilməsi ənənə halını alıb. Tarixi və əlamətdar günlərin, görkəmli hərb xadimlərinin, Milli Qəhrəmanların yubileylərinin geniş miqyasda qeyd olunması böyük rəğbətlə qarşılanır, ordu ilə xalqın yenilməz birliyinə çevrilir.***




# "Vətən uğrunda" mahnı müsabiqəsi

Silahlı Qüvvələrimizin yaradılmasının 97-ci ildönümünə həsr olunmuş "Vətən uğrunda" hərbi vətənpərvərlik mahnıları müsabiqəsi Gəncə Qarnizonu Zabitlər Evinin və Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə respublikamızın bütün cəbhə bölgələrində keçirilən yeni bir lahiyədir. Müsabiqənin keçirilməsində əsas məqsəd milli mədəniyyətin və incəsənətin, hərbi ənənələrin təbliği ilə yanaşı, gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin gücləndirilməsi, ordu ilə cəmiyyət arasında əlaqələrin daha da möhkəmləndirilməsidir. Müsabiqə üç nominasiya üzrə keçirilir: vokal, muğam, estrada. Bu nominasiyalar üzrə hərbi qulluqçular və mülki gənclər istedad və qabiliyyətlərini nümayiş etdirəcəklər. Müsabiqə Qazax, Tovuz, Ağstafa, Gədəbəy, Şəmkir, Daşkəsən, Göygöl, Goranboy, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Beyləqan, Fizuli rayonlarını və Gəncə, Naftalan şəhərlərini əhatə edir. Müsabiqədə iştirak etmək üçün bölgələrdə yerləşən hərbi hissələrin nümayəndələri ilə yanaşı, mülki gənc vətəndaşlar da müraciət etmişlər.

Müsabiqədə iştirak edən yeniyetmələr və gənclər hərbi hissələrdə ordu həyatı ilə yaxından tanış olacaqlar. Onlara Azərbaycan Silahlı Qüvvələrinin formalaşması, inkişafı və müasir silahlar, hərbi texnikalar haqqında ətraflı məlumatlar veriləcək.

Müsabiqənin ilk turu Beyləqan rayonunda keçirildi. Hərbi qulluqçular, müxtəlif bölgələrdən olan nümayəndələr müsabiqə şərtlərinə uyğun olaraq zəngin musiqi xəzinəmizdən nümunələr ifa etdilər. Münsiflər heyətinin rəyinə əsasən, müsabiqədə fərqlənənlər ikinci turda iştirak etmək hüququ qazandılar.

Müsabiqəyə 26 iyunda - Silahlı Qüvvələr Günündə yekun vurulacaq. Qaliblərin Qala konserti keçiriləcək və onlara fəxri fərmanlar, qiymətli hədiyyələr təqdim olunacaq.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid FAXRALI

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 437
Nüsxə 4600